***15.09.2025-ci il tarixində BSU-da Bilik günü qeyd olunub.***




**15.09.2025-ci il tarixində BSU-da keçirilən “Bilik günü” tədbirində iştirak etmiş rektor Anar Nağıyevin nitqi:**

Ulu öndər Heydər Əliyevin yaratdığı Bakı Slavyan Universitetində hər birinizi salamlayıram. Slavyan dilləri üzrə regionun birinci universiteti olan Bakı Slavyan Universitetinə xoş gəlmisiniz. Bakı Slavyan Universitetinin professor müəllim heyətini və bütün tələbələrimizi salamlayıram, hər birinizin bilik gününü təbrik edirəm. Bu gün biz böyük - Bakı Slavyan Universiteti ailəsi olaraq yeni tədris ilinə yeni enerji və yüksək hədəflərlə qədəm qoyuruq.

Məlumdur ki, 2025-ci il ölkə rəhbərimiz, möhtərəm Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda konstitusiya və suverenlik ili kimi qeyd olunur. Ölkəmizin suverenliyi və konstitusiya quruluşu uzun tarixi bir yolun

nəticəsi, böyük tarixi missiyanın məntiqi təntənəsidir. Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasındakı misilsiz fəaliyyəti 2020-ci ilin sentyabrında Vətən müharibəsindəki qələbəyə, 2023-cü ildə isə suverenliyimizin bərpasına gətirdi. Zəfərlərin memarı olan Prezident İlham Əliyev ölkəmizin tarixində 200 illik gedişatı dəyişdi, bizim milli kimliyimizi qalib xalq olaraq yenidən formalaşdırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elm və təhsilin davamlı inkişafına yönəlmiş strateji siyasəti Azərbaycan xalqının və dövlətinin gələcək inkişafına, elm və texnologiya sahəsində liderliyinə, gənclərin dinamik qlobal əmək bazarında rəqabətədavamlı kadrlar olaraq formalaşmasına xidmət edir. Bu siyasətin uğurla icrasında Heydər Əliyev Fondunun və Fondun prezidenti, ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz fəaliyyəti mühüm rol oynayır. Heydər Əliyev Fondu tərəfindən regionlarda yeni məktəblərin inşası, mövcud təhsil müəssisələrinin əsaslı təmiri və bərpası, təhsil infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən layihələr müasir dünyanın çağırışlarına cavab verəcək gəncliyin və gələcəyimizin formalaşmasına xidmət edir. Bu təşəbbüslər həm gənc nəslin sağlam və yüksək keyfiyyətli təhsil almasına şərait yaradır, həm də ölkəmizin gələcək inkişafına xidmət edən intellektual potensialın formalaşmasına töhfə verir. Konstitusiya və suverenliyimizin tarixinin öyrənilməsi və təbliği işində BSU öz üzərinə düşən məsuliyyəti icra etməyə çalışmış, ötən dövr ərzində Bakıda, Qubada, Naxçıvan şəhərində, Sədərəkdə, Suraxanıda, Abşeronda 1000 nəfərdən çox şagirdin iştirakı ilə Yeni dövrün Azərbaycanı mövzusunda Rektorun şagirdlərlə görüşləri keçirilmişdir. Müvafiq fəaliyyət planımız çərçivəsində 2025-2026-cı tədris ilindən etibarən Bakı Slavyan Universitetində (BSU) ali təhsilin bakalavriat səviyyəsi üzrə " Yeni dövrün gəncliyi " adlı yeni daxili təqaüd proqramı təsis edilmiş, bu görüşlərdə iştirak etmiş və ya adları qeyd olunan rayonlardakı görüşlərimizdən bəhrələnmiş tələbələrimizə bu gün təqaüd sertifikaltları təqdim ediləcəkdir.

Düz 5 il bundan öncə Azərbaycan dövləti öz ərazi bütövlüyü uğrunda haqq işinə başladı, 44 gün ərzində ərazi bütövlüyümüzü təmin etdi. 2020-ci ilin 27 sentyabrında başlamış Vətən müharibəsində Universitetimizin tələbə və məzunları da ön sıralarda yer almış, müəllim və tələbələrimiz informasiya müharibəsində öz töhfələrini verməyə çalışmışdırlar. 2016-cı ilin aprel döyşüləri şəhidimiz Vüqar Əhmədovla bərabər Vətən müharibəsi şəhidlərimiz Nicat Şükürlü, Kənan Yaqublu, Elnur Allehverdizadə, həmçinin anti-terror əməliyyatının şəhidi Cavid Mirzəyev Bakı Slavyan Universitetinin şərəfli tarixinin qızıl səhifələrinə çevrildilər. Bütün şəhidlərimizin, o cümlədən BSU-nun məzunları olan şəhidlərimizin əziz xatirəsi hər birimizin qəlbində ömürboyu yaşayacaqdır. Qürurla qeyd edirəm ki, BSU tələbələri sırasında ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda həlak olmuş şəhidlərimizin

və qazilərimizin övladları da tələbələrimiz sırasındadırlar. Bütün şəhidlərimizə rəhmət diləyir, onların valideynləri qarşısında baş əyir, qazilərimizə Uca Tanrıdan şəfa diləyirik.

Əziz dostlar, təxminən iki aydan sonra biz Vətən müharibəsindəki zəfərimizin 5-ci il dönümünü qeyd edəcəyik. Prezident İlham Əliyevin "Əziz Şuşa, sən azadsan, Əziz Şuşa biz qayıtmışıq, Əziz Şuşa biz səni dirçəldəcəyik" xitabı milli kimliyimizin dərin qatlarına təsir etmiş, Ulu öndərin fəxr etdiyi Azərbaycanın yeni dövrünün başlanğıcını simvolizə edirdi. Bu xitab həm də hər birimizin vəzifə və məsuliyyətimizi bir daha müəyyən edirdi – müəllimlər, təhsil təşkilatçıları, tələbələr, valideynlər, bir sözlə cəmiyyətin üzvləri olaraq hər birimiz yeni dövrün Azərbaycanın inkişafında öz töhfəmizi verməli, ölkəmizin inkişafında dayanmadan çalışmalıyıq. Siz hər biriniz, əziz tələbələr, uşaqlıq və yeniyetməlik dövründən qələbələr və zəfərlərin şahidlərisiniz. Sizin yaşadığınız Azərbaycan böyük coğrafiyada söz sahibidir. Sizin qarşınızda daha böyük missiyalar və hədəflər vardır. Qarabağ  və Şərqi Zəngəzurun sürətlə yenidən qurulduğu, Böyük Qayıdışın dönəmində hər birimizin üzərinə düşən məsuliyyət daha da artır. Bu gün yüksək ixtisaslı kadrların hazırlanması yalnız şəxsi uğur deyil, həm də Vətənimizin gələcəyi, onun davamlı inkişafı üçün önəmli vəzifədir. Bizim öhdəmizə düşən məsuliyyət — həm ölkəmizin inkişafında, həm də milli dəyərlərimizin qorunmasında aktiv iştirak etməkdir.

Əziz tələbələr,onların valideynləri, Yeni dövrün Azərbaycanı, hər sahədə, o cümlədən təhsil sahəsində dövrün çağrışlarına cavab verən ali təhsil müəssisələrinin formalaşmasını, öyrətmə və öyrənməyə çağdaş yanaşmalara açıq olmağı tələb edir. BSU bu tələbələrə uyğunlaşmağa çalışır, universitetin yerli və beynəlxalq nüfuzu sürətlə artmaqdadır. Hədəfimiz geniş Avropa regionunda müasir dillərin öyrənilməsi üzrə mükəmməllik mərkəzlərindən birinə çevrilməkdir. Ötən tədris ilinin BSU iki beynəlxalq reytinq sıralamalarında yer aldı, tarixində ilk dəfə olaraq THE reytinq sistemində dünyanın aparıcı 1500 ali təhsil müəssisəsi sırasında öz yerini təsbit etdi. Bu qlobal qiymətləndirmə mexanizminin iki komponenti üzrə isə dünya üzrə 1000 universitet sırasında yer almışıq. BSU-nun ilk dəfə qatıldığı Round University Ranking (RUR) 2025 beynəlxalq reytinqində dünya üzrə 1098-ci, Azərbaycan universitetləri arasında isə 6-cı yerə layiq görülmüşdür. RUR-un 20 indikator və 4 əsas sahə üzrə (tədris – 40%, tədqiqat – 40%, beynəlxalq müxtəliflik – 10%, maliyyə dayanıqlığı – 10%) qiymətləndirmə mexanizminin uğurla keçmiş, tədrisin təşkili komponentində isə ölkə üzə 5-ci olmuşdur. Son 4 il ərzində Universitetimizdə bakalavriat səviyyəsində 9 yeni ixtisas (politologiya, psixologiya, xüsusi pedaqogika, tarix müəllimliyi, türk filologiyası, azərbaycan-fransız tərcüməçiliyi, Qərbi Avropa regionşünaslığı, Mərkəzi Asiya regionşünaslığı, Şərqi Avropa regionşünaslığı), magistratura səviyyəsində isə təhsilin idarə olunması üzrə 3 yeni ixtisas yaradılmışdır.

Balkanşünaslıq və Xəzər regionu ixtisaslarımız yenilənmiş, tələbələrimiz üçün tərəfdaş universitetlərdə təhsil almaq və mübadilə proqramlarında iştirak etmək imkanları adi hala çevrilmişdir. Hal hazırda BSU-nun 10 nəfər tələbəsi bir ay müddətinə Albaniyanın Tirana Universitetində alban dili və mədəniyyəti kurslarında iştirak edirlər. Bu gün bu salonda əyləşmiş bir neçə tələbəmiz üçün də Bolqarıstan, Belarus, Özbəkistan, Albaniya və Polşada yerləşən tərəfdaş universitetlərimizdə mübadilələr və kurslarda iştirak imkanları səsləndiriləcəkdir. Bu imkanlar hər birinizi davamlı olaraq gözləyəcəkdir. Siz bu gün hər iki binamızda tamamilə yenilənmiş, müasir təlim mühitinin tələblərinə cavab verən auditoriyalarda dərslərə başlamısınız. Bu gündən etibarən rəqəmsal BSU layihəsi tam tətbiq olunmağa başlamış və hər birinizi bu prosesdə aktiv olmağa, müasir terminlərlə desəm e-tələbə statusunda özünüzü nümayiş etdirməyə dəvət edirəm. Universitetimizin Kitabxana Öyrənmə Mərkəzinin imkanları sizə unikal öyrənmə imkanı verəcəkdir. Hər addımında milli dəyərlərimizə sadiqliyini qoruyan BSU slavyanşünaslıq üzrə regionunun birinci universiteti olaraq dillərin öyrənilməsi üzrə mükəmməllik mərkəzinə çevrilməyi hədəfləyib. Universitetimizdə ukrayna, belorus, bolqar, polşa, türk, yunan, rus, özbək, çex və digər dillər öyrədilir, müvafiq dil mərkəzləri bu ildən etibarən yeni konsepsiya üzərindən təşkil edilir.

Qürurla qeyd etməliyəm ki, BSU son 4 ildə ən yüksək qəbul nəticələrinə nail olmuşdur. 2021-2022-ci tədris ilindən etibarən tarixində ilk dəfə 1000 nəfər birinci il tələbəsinin seçdiyi BSU hər il artan dinamikası ilə seçilmişdir. Hər növbəti il əvvəlki tədris ilinin nəticələrini yeniləmişdir. 2025/2026-cı tədris ili üçün bakalavriata qəbul planı – 1440 olmuş, 1432 nəfər qəbul olunanlarla qəbul faizini 99.4%-ə çatdırmışdır. 2021-2022-ci tədris ildə mövcud olmuş 3600 nəfər tələbə ilə müqayisədə hazırda universitetimizdə 5500 nəfərdən çox təhsilalan vardır. Magistratura səviyyəsində isə 91%-ə yaxın qəbul nəticələrimizlə ölkə üzrə yüksək sıralarda yer almışıq. Qəbul olan magistrantların 25%-nə qədəri digər ali təhsil müəssisələrinin məzunlarıdır. Bu həm də universitetimizə, burada çalışan professor-müəllim heyətinə göstərilən böyük inamın nəticəsidir. Sevindirici haldır ki, son illərdə universitetimizdə bir sıra ixtisaslara maraq əhəmiyyətli dərəcədə artmışdır. Xüsusilə filologiya, tərcümə, regionşünaslıq, psixologiya və beynəlxalq münasibətlər kimi ixtisas istiqamətlərində müşahidə olunan davamlı artım Bakı Slavyan Universitetinin akademik spektrinin genişləndiyini və əmək bazarının tələblərinə adekvat, yüksək ixtisaslı kadr hazırlığını təmin etdiyini təsdiqləyir.

Bakı Slavyan Universitetinin müəllimlik ixtisaslarını xüsusi olaraq vurğulamaq istərdim. Bu ixtisaslarda qızların üstünlük verməsi adi normaya çevrilmişdir. Qeyd etmək istərdim ki, müəllimlik ixtisasları üzrə bu il ümumilikdə 471 nəfər tələbə qəbul olunmuşdur və onların böyük əksəriyyətini qız tələbələr təşkil edir. Bu fakt

yalnız təhsil sahəsində qadınların fəallığının artdığını deyil, eyni zamanda cəmiyyətimizdə qadın liderliyinin yüksəliş tendensiyasını da nümayiş etdirir. Universitet rəhbərliyi olaraq hesab edirik ki, bu meyil həm gender bərabərliyinin təşviqi, həm də təhsil sektorunda qadınların liderlik potensialının inkişafı baxımından son dərəcə müsbət və strateji əhəmiyyət daşıyır. BSU "Regionlardan qəbul olunan qızlar üçün təqaüd proqramı" təsis edib. Bu təşəbbüs son 3 ilin statistikasına əsaslanaraq müxtəlif regional bölgələrdən BSU-ya az sayda qəbul olunan qız tələbələrin ali təhsil almaq imkanlarını genişləndirmək, onları stimullaşdırmaq və akademik inkişaflarını dəstəkləmək məqsədinə xidmət edir. Daxili təqaüd proqramı aylıq 200 AZN olmaqla, həmin bölgələrdən müəllimlik ixtisasına qəbul olunan və 450 baldan yuxarı toplayan 5 qızımız üçün nəzərdə tutulub. Təbii ki, müəllimlik ixtisasında qızlarımızla yanaşı, oğlanlarımızın da təhsil alması bizim marağımızda olduğundan Müəllimlik ixtisaslarında oğlanların iştirakı stimullaşdırmaq məqsədi ilə "İbtidai sinif müəllimliyi və xarici dil müəllimliyi ixtisaslarına qəbul olan oğlan tələbələr üçün təqaüd proqramını"xüsusi təqaüd proqramı təsis etdik. Bu təşəbbüs BSU-da müəllimlik ixtisaslarına oğlan tələbələri cəlb etmək, onların pedaqoji fəaliyyətə marağını artırmaq,stimullaşdırmaq və təhsildə gender balansının qorunmasına töhfə vermək məqsədinə xidmət edir. Daxili təqaüd proqramı ayda 200 AZN olmaqla, universitetimizə qeyd olunan ixtisalara qəbul olan və 450 baldan yuxarı bal toplayan oğlan tələbələr üçün nəzərdə tutulub. Bu gün adları qeyd olunan bu təqaüd proqramları ilə tələbələrimizi təltif edəcəyik.

Əziz dostlar, sizinin təhsiliniz və inkişafınız bizim hədəfimizidir. Ömürboyu öyrənmə konsepsiyası üzərində çalışan BSU hər bir tələbəsi və məzunu üçün davamlı öyrənmə mərkəzi rolunu oynayır. Əziz birinci tədris ili tələbələri, Sizin bu gün universitetlə tanışlığınız, bu günki tədbirin təşkili, hələ qeydiyyat dövründə sizə göstərilən dəstək və bütövlükdə fəaliyyətimizin təşkilində tələbə iştirakçılığının böyük rolu var. Bakı Slavyan Universitetinin tələbə təşkilatları öz aktivliyi ilə seçilir, Rəsul, Xədicə, Məhəmməd, Cəfər, Əli və onlarla digər aktiv tələbələrimiz universitet həyatında mühüm yer almışdırlar. Bu gün onların adından və bütün BSU tələbə könüllülüəri adından Fatimə çıxış edərək hər birinizi salamyacaqdır. Mən isə öz adımdan və bütün həmkarlarım adımdan adlarını qeyd etdiyim və etmədiyim minlərlər tələbəmizə səslənir, onların böyük bir dəyər daşıyıcısı olduğunu və hər biri ilə qürur duyduğumuzu növbəti dəfə bildirirəm. BSU Könüllüləri hər bir fəaliyyətimizdə fəal iştirak edirlər. Ötən il Yaşıl dünya naminə BSU könüllüləri qrupunu qeyd etmək yerinə düşər. Qrupun üzvləri COP29 zamanı fəaliyyətləri ilə seçilmiş, Prezident İlham Əliyevin ali diqqətinə layiq görülmüş və möhtərəm Prezident tərəfindən təşəkkürnamalərlə təltif edilmişdirlər. Mən bu gün tam məsuliyyəti və arxayınçılığı ilə deyirəm ki, BSU-nun idarə olunmasında

təhsilalanların rolu yüksək səviyyədə olmaqla, tam intqerasiya edilmişdir. Tələbələrimiz Universitetimizə sahiblənmişdirlər. Tələbəyönümlü və inklüziv universitet mühiti bizi böyük ailənin tərkib hissələrinə çevrilmişdir. Universitetimizdə tələbə rifahı, bərabər imkanlar əsas hədəflərdir.

Əziz dostlar, çoxlarınıza məlumdur ki, BSU nəzdnində məktəb-lisey kompleksi mövcuddur. Kompleks, hər il olduğu kimi, bu il də məzunlarının yüksək nəticələri ilə seçilmişdir. Bu gün məktəbimizdə 1519 şagird sinif otaqlarında yeni öyrənmə prosesinə başlayacaq, 134 şagird isə birinci sinifə qədəm qoyacaq. Məktəbin rəhbərliyinə və pedaqoji heyətini yeni tədris ili münasibəti ilə təbrik edir, uğurlar arzulayıram.

**Əziz həmkarlar, BSU-nun professor və müəllim heyəti!**

Yeni tədris ili münasibətilə bir daha hər birinizi səmimi qəlbdən salamlayır, uğurlar arzulayıram. Bu gün biz yalnız tədris ilinin başlanğıcını qeyd etmirik, eyni zamanda yeni məqsədlərin, nailiyyətlərin və kollektiv ruhun təməlini gücləndiririk.

Qarşıdan universitetimizin böyük yubiley ili gəlir. Əminəm ki, bu il bizim inkişaf, yenilikçilik, rəqabətlililik və tələbəyönümlü təhsil nailiyyətlərimizin növbəti təntənəsi olacaqdır. Bu tədris ilindən fəaliyyətə başlayan Müəllim İnkişaf Mərkəzi və BSU rəqabətədavamlılıq layihələrinin inkişafımıza xüsusi töhfə verəcəklərinə əminəm.

Bakı Slavyan Universiteti böyük bir ailədir və hər birimizin birgə səyi, əməkdaşlığı və fəallığı Universitetimizin uğurlarının əsasını təşkil edir. Bu il də biz birlikdə daha yüksək hədəflərə çatmaq, tələbələrimizin və hər birimizin inkişafını təmin etmək üçün səfərbər olacağıq.

İnanıram ki, Bakı Slavyan Universiteti daha da möhkəm, daha yenilikçi və daha inkişaf etmiş universitet kimi inkişaf edəcək, dillərin öyrənilməsi üzrə müəkəmməllik mərkəzi statusunu və mövqeyini gücləndirəcəkdir.

Bakı Slavyan Universiteti ilə başlanan hər bir addımın uğura aparacağına əminik, bunun üçün yüzlərlə həmkarın dayanmadan çalışır. Bu işdə bütün həmkarlarıma və tələbələrimizə uğurlar arzulayır, gözəl öyrənmə mühitindən bəhrələnməyi diləyirəm.

Bu gün bu salonda yer alan, eləcə də birinci dərs gününə başlayan 1400 tələbənin hər birinin ailəsinə və müəllimlərinə salamlarımı çatdırır, hər birini təbrik edir və uğurlar arzu edirəm.

Üzümü bütün BSU tələbələrinə tutaraq, gündəlik fəaliyyətimizin motosunu gözəl ifadə edən "hər bir başlanğıcınız böyük uğurlara vəsilə olsun!" arzusu ilə salamlama nitqimi yekunlaşdırır və hər birinizə xoşbəxtlik, möhkəm cansağlığı və təhsil hıyatınızda böyük nailiyyətlər arzu edirəm.

**BİLİK GÜNÜNÜZ VƏ YENİ TƏDRİS İLİMİZ MÜBARƏK OLSUN!**